№ 9

# Göyərçin

2002
ISSN-0207-4710



*DÜNYA XALQLARININ NAĞILLARI*

# DOVŞAN İNSANI PƏLƏNGDƏN NECƏ XİLAS ETDİ?

(KOREYA NAĞILI)

Tərcümə edəni:
*R.ƏLİYEV*

Rəssam
*ORXAN*

Bir dəfə insan yol ilə gedərkən qulağına dəhşətli bir nərilti səsi gəldi. O, yaxına gedib gördü ki, pələng dərin bir quyuya düşüb. O, nə qədər çalışırsa, quyudan çıxa bilmir. İnsanı görən pələng ona yalvarmağa başladı:

- Əgər sən məni xilas etsən, bütün pələnglər sənin qulluğunda dayanacaq.

Yolçunun pələngə rəhmi gəldi. O, bir ağac kəsib quyuya salladı. Pələng həmin ağacın köməyi ilə dırmaşıb azadlığa çıxdı. Lakin öz xilaskarına minnətdarlıq etmək əvəzinə, onun üstünə cumub parçalamaq istədi.

İnsan pələngə dedi:

- Ey yaramaz, mənim yaxşılığımı nə tez unutdun?

- Unutmağına unutmamışam, amma səni yeməliyəm.

Çarəsiz yolçu pələngi dilə tutmağa başladı. Dedi ki, gəl soruşaq görək, bizim hansımız haqlıyıq.

Elə bu zaman onların rastına bir öküz çıxdı. Öküz dedi ki, insan yox, pələng haqlıdır. Zalım insan bizi gecə-gündüz işlədir. Kəsib ətimizi yeyir, hələ dərimizə də sahib çıxır.

Öküzün sözlərindən pələng çox razı qaldı. O, yolçunu yemək istəyəndə, insan yalvardı:

- Gəl indi də kimin haqlı olduğunu şam ağacından soruşaq.

Bayaqdan söhbətə qulaq asan şam ağacı da pələngin tərəfini saxladı:

- Yer üzündə insandan zalım canlı görməmişəm. O, bizi nəinki kəsib-doğrayır, həmçinin yandırır.

Pələng sevindi. O, insanı yemək istəyəndə bir dovşan qaça-qaça onlara yaxınlaşdı.

İnsan pələngə yalvardı:

- Gəl indi də dovşandan soruşaq, əgər o da sənin tərəfini saxlasa, məni rahatca yeyərsən.

İnsan başına gələni dovşana danışdı. Dovşan bir qədər fikirləşib dedi:

- Ədalətli qərar vermək üçün gərək mən hər şeyi təzədən görəm.

Qələbəsinə arxayın olan pələng düşünmədən quyuya tullandı. Dovşan gülə-gülə yolçuya dedi:

- Sən pələngi quyudan çıxardığına görə özünü pis vəziyyətdə qoymusan. İndi qoy pələng quyuda qalsın. Belədə kimin haqlı olub-olmadığını soruşmağa da ehtiyac qalmayacaq.

Yolçu və dovşan öz yollarına davam etdilər, nankor pələng isə nərildəyə-nərildəyə quyunun içində qaldı.

